

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 144 (21.554)

5 avqust 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 4-də Bakının Yasamal rayonunun keçmiş “Sovetski” ərazisində yeni yol-nəqliyyat infrastrukturunun təməlini qoyub.

Dövlətimizin başçısına keçmiş “Sovetski” ərazisində indiyədək Yasamal Rayon İcra Hakimiyyəti tərəfindən görülən işlər və “Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin həyata keçirəcəyi yenidənqurma və abadlıq tədbirləri barədə məlumat verilib.

Bildirilib ki, bu ərazidə aparılacaq işlərin birinci mərhələsində 26 hektarda yolların salınması və abadlıq işlərinin görülməsi nəzərdə tutulur. Buraya 23 hektar sahədə yaşıllaşdırma və abadlıq, 3 hektar sahədə isə avtomobil yollarının tikintisi işləri daxildir.

Prezident İlham Əliyev keçmiş “Sovetski” ərazisində yeni yol-nəqliyyat infrastrukturunun təməlini qoyub.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələrini verib.

Xatırladaq ki, “Sovetski”nin köçürülməsi hələ Sovetlər İttifaqı dövründə belə paytaxt üçün vacib sayılan layihə idi. Bu irimiqyaslı və tarixi layihə yalnız müstəqil ölkəmizin iqtisadi inkişafı dövründə dövlətimizin başçısının təşəbbüsü ilə həllini tapıb.



## Naxçıvanda Azərbaycan Vətən Müharibəsi iştirakçılarına yeni mənzillər və minik avtomobilləri təqdim olunmuşdur









Avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində sağlamlıq imkanları məhdud olan 4 nəfər Azərbaycan Vətən Müharibəsi iştirakçısına yeni mənzillər və Azərbaycan Vətən Müharibəsinin iştirakçısı olan iki nəfərə isə “NAZ-Lifan 320” markalı minik avtomobilləri təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov tədbirdə çıxış edərək demişdir ki, şəhid ailələrinin və müharibə əlillərinin yaşayış şəraitinin yaxşılaşdırılması, onlara sosial xidmət göstərilməsi diqqət mərkəzindədir. 2016-cı ilin birinci yarısında 5 müharibə əlili və şəhid ailəsi mənzillərlə təmin edilmiş, məhdud fiziki imkanlı 132 nəfərə müxtəlif sanatoriya və pansionatlara göndərişlər, 148 nəfərə texniki bərpa vasitələri verilmiş, 117 nəfərin bərpa mərkəzlərində, 6 nəfərin isə xarici ölkələrdə müalicələri təşkil edilmişdir. Eyni zamanda 170 nəfərə protez-ortopedik xidmət göstərilmişdir. Muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin təhsili, əmək bazarına inteqrasiyası və yaradıcılıq potensiallarının aşkar edilməsi də diqqət mərkəzində saxlanılır. Sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçıları və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların tibbi və sosial bərpası istiqamətində ardıcıl tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni mənzillə və avtomobillə təmin olunanlara xidməti vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə təşəkkür edərək demişdir: Bu gün mənzil və avtomobil təqdim olunan şəxslər vaxtilə vətən qarşısında xidməti borclarını layiqincə yerinə yetirmiş, bu yolda sağlamlıqlarını itirmişlər. Ona görə də müvafiq kateqoriyadan olan insanlar ölkəmizdə xüsusi imtiyaza malikdirlər. Onlara dövlətimiz tərəfindən yeni mənzillər və minik avtomobilləri verilir. Bu gün də sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçılarından 4-ü yeni mənzillə, 2-si isə minik avtomobili ilə təmin olunur. Bütün bunlar vətən qarşısında xidməti borclarını layiqincə yerinə yetirən insanlara dövlətimiz tərəfindən göstərilən qayğıdır. Eyni zamanda bu şəxslərin vətən yolunda göstərdikləri xidmətləri digər insanlar üçün də nümunədir.

Ali Məclisin Sədri demişdir: Bu gün mənzil və avtomobil təqdim olunan insanlar yalnız bir amal – Vətən yolunda xidmət etmişlər. Ona görə də müvafiq kateqoriyadan olan insanlar ölkəmiz və xalqımız qarşısındakı xidmətlərinə görə bundan sonra da dövlətimizin himayəsi və qayğısı altında yaşayacaqlar.

Ali Məclisin Sədri yeni mənzillə və avtomobillə təmin olunanlara təbriklərini çatdırmış, mənzillərin orderlərini və avtomobillərin açarlarını təqdim etmiş, onlara firavan həyat arzulamışdır.

Mənzillə təmin olunan Şəmil Babayev çıxış edərək demişdir: Muxtar respublikada insanların həyat səviyyəsi günbəgün yaxşılaşır. Bunu biz – Vətənimizin azadlığı və ərazi bütövlüyünün qorunması zamanı sağlamlığını itirənlər, şəhid ailələri də gündəlik həyatımızda hiss edirik. Bizə dövlətimiz tərəfindən yüksək diqqət və qayğı göstərilir. Müharibə əlilləri, şəhid ailələri mənzillə təmin olunur, minik avtomobilləri verilir, müalicələrinə köməklik göstərilir. Son illər muxtar respublikada şəhid ailələrinin və müharibə əlillərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması artıq ənənəyə çevrilib. Ailəmizin mənzillə təmin olunacağını eşidəndə çox sevindik. Şəmil Babayev gözəl şəraitli mənzillə təmin olunduqlarına görə müharibə əlilləri adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçılarına verilən üç və ikiotaqlı mənzillər Şərur rayonunun Yengicə, Babək rayonunun Nehrəm, Kəngərli rayonunun Böyükdüz və Sədərək rayonunun Sədərək kəndlərində yerləşir. Yeni tikilən mənzillərin hər birində lazımi kommunal-məişət şəraiti yaradılmışdır. Həmçinin mənzillə təmin olunanlara xalça hədiyyə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində 2016-cı ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.***

İclası giriş sözü ilə agentliyin baş direktoru Yasin Səfərov açaraq bildirib ki, 2016-cı ilin birinci yarısında muxtar respublikanın elektrik stansiyalarında 199 969 000 kilovat-saat elektrik enerjisi, o cümlədən su elektrik stansiyalarında 121 489 000 kilovat-saat, istilik elektrik stansiyalarında 63 427 000 kilovat-saat, Günəş elektrik stansiyasında 15 053 000 kilovat-saat elektrik enerjisi istehsal edilib elektrik şəbəkələrinə ötürülüb. Su elektrik stansiyalarında ümumi elektrik enerjisi istehsalının 60,75 faizi, istilik elektrik stansiyalarında 31,72 faizi, Günəş elektrik stansiyasında isə 7,52 faizi qədər elektrik enerjisi istehsal olunub. Muxtar respublikanın elektrik enerjisinə olan tələbatının 70 faizə qədəri alternativ və bərpa olunan elektrik stansiyalarında istehsal olunub. Bu, çox nadir göstərici hesab edilir.

Abonentlərin fasiləsiz və təhlükəsiz elektrik enerjisi ilə təminatı cari ilin birinci yarısında da diqqət mərkəzində saxlanılıb, – deyən Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin baş direktoru Yasin Səfərov onu da qeyd edib ki, elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, müxtəlif gərginlikli transformator yarımstansiyalarında qrafik əsasında əsaslı və cari təmir işləri aparılıb, tələbatçıların elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması, yaşayış sahələrinin, məktəblərin, sosial obyektlərin, hərbi hissələrin, nasos stansiyaları və artezian quyularının elektrik təchizatı üçün yeni transformator yarımstansiyalarının qoyulması, müxtəlif gərginlikli elektrik verilişi xətlərinin çəkilməsi, Naxçıvan şəhərində və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilib.

Vurğulanıb ki, hesabat dövründə muxtar respublikanın şəhər və kəndlərində 1 ədəd 35/6 kilovoltluq , 19 ədəd 10/0,4 kilovoltluq yeni transformator yarımstansiyası quraşdırılıb, 19 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətləri çəkilib. Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 49 ədəd 10/0,4 kilovoltluq transformator təmir edilərək şəbəkələrə qaytarılıb. Həmçinin muxtar respublikada bütün işlədicilərin istifadə etdiyi elektrik enerjisinin dəqiq qeydiyyatını aparmaq üçün elektron sayğaclar qoyulub, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilib. Naxçıvan şəhərində əhali abonentlərinin ev və mənzillərində ön ödənişli smart-karttipli sayğacların qoyulması işləri davam etdirilib, ötən altı ay ərzində 2300 ədəd belə sayğac quraşdırılıb.

Sərf olunan elektrik enerjisinin dəyərinin vaxtında ödənilməsi də diqqət mərkəzində saxlanılıb, cari ilin birinci yarısında 6,9 faiz texniki itki nəzərə alınmaqla işlədicilərə dəyəri 10 milyon 952 min 400 manat təşkil edən 182 milyon 541 min kilovat-saat elektrik enerjisi verilib. Elektrik enerjisi satışından 10 milyon 866 min 400 manat vəsait toplanıb, enerjinin dəyərinin ödənilməsi 99,21 faiz olub.

Sonra Naxçıvan Modul Elektrik Stansiyasının direktoru Məhərrəm Abbasov, Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin direktoru İqrar Əliyev, Şahbuz Rayon Elektrik Şəbəkəsinin direktoru Tural Quliyev, agentliyin Enerji nəzarət və satışı şöbəsinin müdiri Şükür Quluzadə görülmüş işlər və qarşıda duran vəzifələrin yerinə yetirilməsi istiqamətində həyata keçiriləcək tədbirlər haqqında məlumat veriblər.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin baş direktoru Yasin Səfərov yekun vurub.

* * *

***Muxtar respublikada 1 iyul 2016-cı il tarixə təbii qaz istehlakçılarının ümumi sayı 86333 olub. Onların 84325-i əhali, 2008-i isə qeyri-əhali abonentləridir. Cari ilin 6 ayında 778 abonent, o cümlədən 715 əhali və 63 qeyri-əhali abonent tərəfindən daxil olan müraciətlərə əsasən yaşayış evi və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb.***

Bu məlumatları "Naxçıvanqaz" İstehsalat Birliyində cari ilin birinci yarısının yekunlarına həsr olunan iclasda birliyin direktoru Ramin İsmayılov diqqətə çatdırıb. Qeyd olunub ki, birinci yarımildə təbii qaz istehlakçılarının istismara yararsız qaz sayğacları istismardan çıxarılıb və yeni müasir qaz sayğacları ilə təmin olunub.

Naxçıvan şəhərində istehlakçılarda olan qaz sayğaclarının ön ödəmə smart-karttipli elektron sayğaclarla əvəz olunması istiqaməti üzrə sifariş əsasında Türkiyə istehsalı olan 11 min 600 ədəd sayğac və sayğacların mühafizəsi üçün xüsusi qutular alınıb. Sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçirilib.

Hesabat dövründə Naxçıvan şəhərində 2672 ədəd smartkarttipli qaz sayğacı və mühafizə qutusu quraşdırılıb. Ümumilikdə, şəhər ərazisində 10 min 598 ədəd qaz sayğacı dəyişdirilib. İstismarda olan yeraltı yüksək və ortatəzyiqli magistral qaz kəmərlərinin üzərində quraşdırılmış katod elektrokimyəvi mühafizə qurğularına vaxtlı-vaxtında nəzarət olunub, xətdəki potensiallar fərqi ölçülərək nəzarətdə saxlanılıb.



Bildirilib ki, qaz təsərrüfatının istismarında olan şkaftipli müxtəlif markalı qaz tənzimləyici qurğulara, qaz tənzimləyici məntəqələrə, texnoloji avadanlıqlara texniki xidmət göstərilib və monometrlərin istismara yararlılığı yoxlanılıb, qurğuların daxili və xarici müayinəsi aparılıb.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər peşəsi kurslarının təşkili barədə də məlumat verən Ramin İsmayılov bildirib ki, bu günə kimi rayon və şəhər qaz istismarı idarələrində işləyən 167 nəzarətçi-çilingər kursa cəlb edilib və kursu bitirərək şəhadətnamə alıb. Onlardan 44 nəzarətçi-çilingər 2016-cı ilin birinci yarımilində kursa cəlb olunub.

Muxtar respublikanın yaşayış məntəqələrində yerli icra hakimiyyəti, hüquq-mühafizə orqanları nümayəndələri və qaz istismarı idarələrinin işçiləri ilə birgə reydlər keçirilib, aşkarlanmış nöqsanlara, sayğaca müdaxilə və qaz təsərrüfatına dəyən zərərə görə qanunvericiliyin tələblərinə uyğun cərimələr tətbiq edilib.

"Naxçıvanqaz" İstehsalat Birliyi tabe strukturlarda əmək və icra intizamına ciddi nəzarət olunmasını diqqət mərkəzində saxlayır. Rayon və şəhər qaz istismarı idarələrində çalışan işçilərin müəssisədaxili intizam qaydalarına riayət etmələri və əmək müqaviləsi üzrə öhdəliklərini qismən yerinə yetirmələri aşkarlanıb. Bununla bağlı müvafiq tədbirlər görülüb.

Məruzə ətrafında Ordubad və Sədərək Rayon Qaz İstismarı idarələrinin rəisləri Tural Əzimovun, İlqar Əliyevin, Naxçıvan Şəhər Qaz İstismarı İdarəsinin rəis əvəzi Orxan Rüstəmovun çıxışları olub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində keçirilən kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən komitənin sədri Kamal Cəfərov bildirib ki, muxtar respublikanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklərin qeydə alınması, təhlil edilərək ümumiləşdirilməsi istiqamətində muxtar respublikanın statistika orqanları tərəfindən 2016-cı ilin birinci yarısında qanunvericilik üzrə müəyyən tədbirlər görülüb.***

Ötən dövr ərzində şəhər və rayon statistika idarələri ilə birlikdə komitə aparatının Demoqrafiya, əmək və sosial statistikası şöbəsi üzrə 4149 təsərrüfat subyektindən 10435, Sənaye, tikinti, rabitə, nəqliyyat və kommunal statistikası şöbəsi üzrə 916 təsərrüfat subyektindən 4472, Kənd təsərrüfatı statistikası şöbəsi üzrə 384 təsərrüfat subyektindən 1283, Ticarət, xidmət və texniki təchizat statistikası şöbəsi üzrə 2640 təsərrüfat subyektindən 4347, Qiymət statistikası şöbəsi üzrə 309 təsərrüfat subyektindən 1678, Maliyyə və təsərrüfat şöbəsi üzrə 201 təsərrüfat subyektindən 534 ədəd olmaqla, cəmi 8599 təsərrüfat subyektindən 22749 ədəd hesabat yığılıb. Hesabatlar komitə aparatının aidiyyəti şöbələri tərəfindən ümumiləşdirilərək analiz edilib, muxtar respublika üzrə iqtisadi və sosial sahələrin vəziyyətinə dair göstəricilər əldə olunub.

Vurğulanıb ki, iş planına uyğun olaraq ötən dövr ərzində statistik vahidlərin dövlət reyestrində qeydiyyatda olan təsərrüfat subyektlərinin göstəricilərinin aktuallaşdırılması görülmüş tədbirlər nəticəsində nəzərdə tutulmuş vaxtda başa çatdırılıb. Statistik vahidlərin dövlət reyestrində qeydiyyatda olan bütün müəssisələrlə əlaqə yaradılıb, müvafiq göstəricilər dəqiqləşdirilib. Bu dövr ərzində hesabat intizamına cəlb olunmayan hüquqi şəxs qalmayıb.

Komitə aparatının müvafiq şöbələri tərəfindən 32 adda, o cümlədən 1 yanvar 2016-cı il tarixə muxtar respublikada mal-qaranın sayı haqqında, "2015-ci ildə Naxçıvan Muxtar Respublikasının əsas demoqrafik göstəriciləri haqqında", "2015-ci ildə Naxçıvan Muxtar Respublikasında təhsil, səhiyyə, mədəniyyət, pensiya təminatı və idmanın vəziyyəti haqqında", 2015-ci ilin yanvar-dekabr və 2016-cı ilin yanvar-mart aylarında Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı haqqında, "Əsas fondların, obyektlərin istifadəyə verilməsi, əsas kapitala yönəldilmiş investisiyadan istifadə edilməsi və tikinti müəssisələrinin əsas göstəriciləri haqqında" təhlili məruzələr və statistik bülletenlər hazırlanıb.

Qeyd olunub ki, "Naxçıvan Muxtar Respublikasında statistika işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 1 iyun tarixli Sərəncamının icrası istiqamətində inzibati ərazi dairələrində istifadə üçün təsərrüfatbaşına kitab və onun işlənilməsinə dair göstəriş hazırlanıb, müvafiq kitabın şəhər və rayonlarda təqdimatı keçirilib, maraqdoğuran suallar cavablandırılıb.

2016-cı ilin ötən dövrü ərzində komitə aparatının aidiyyəti şöbələri tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin internet saytında 2015-ci ilin yekunu və cari ilin ötən dövrü üzrə aylıq makroiqtisadi göstəricilərin, təhlili materialların və muxtar respublikada istifadəyə verilmiş obyektlərin fotoşəkillərinin yerləşdirilməsi işləri aparılıb.

Bəhs olunan dövrdə kütləvi informasiya vasitələri ilə də sıx əlaqə saxlanılıb, muxtar respublikanın sosial-iqtisadi vəziyyətini əks etdirən kompleks materiallar dərc olunub.

Komitədə kadr hazırlığını daha da təkmilləşdirmək məqsədilə müxtəlif vaxtlarda keçirilən treninq və seminarlarda komitə əməkdaşlarının iştirakı təmin edilib.

Məruzə ətrafında müzakirələrdə komitənin şöbə müdirləri Cavanşir Qurbanovun, Əliheydər Qurbanlının, Naxçıvan Şəhər, Şərur və Sədərək Rayon Statistika idarələrinin rəisləri Rövşən Aslanovun, Ramiz Rəsulovun, Seymur Məmmədovun çıxışları olub.

* * *

***Avqustun 4-də Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində də cari ilin ilk 6 ayının yekunlarına həsr olunmuş iclas keçirilib. İclasda Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edib.***

Bildirilib ki, 2016-cı ilin ilk 6 ayında muxtar respublikada sığorta fəaliyyətinin genişləndirilməsi üçün tədbirlər həyata keçirilib. Bu məqsədlə sığortaçılar və sığortaolunanlar arasında sığorta münasibətlərinin təkmilləşdirilməsi üçün əhalinin maarifləndirilməsi istiqamətində işlər görülüb. Aparılan maarifləndirmə məqsədilə sığorta müqavilələri bağlanarkən sığortanın əhəmiyyəti və şərtləri barədə ətraflı məlumatlar verilib, sığortanın ayrı-ayrı növləri ilə əlaqədar bildiriş vərəqələri paylanılıb.

Qeyd olunub ki, cari ilin ilk 6 ayında Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi tərəfindən Şərur, Sədərək və Babək Rayon İcra hakimiyyətləri ilə birlikdə "Sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələrə dair" yığıncaqlar keçirilib. Ötən dövrdə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üçün sığorta olunmayan sürücülərin icbari sığortaya cəlb olunması məqsədilə Dövlət Baş Sığorta Agentliyi və Dövlət Yol Polisi İdarəsi əməkdaşları birlikdə müntəzəm reydlər keçiriblər. Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində sahibkarlara məxsus daşınmaz əmlakın, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin sığortasının həyata keçirilməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin və rayon, şəhər yanğın təhlükəsizlik şöbələrinin əməkdaşları ilə birlikdə tədbirlər həyata keçirilib, maarifləndirmə işləri aparılıb. Sahibkarlıq obyektlərində işləyən işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortasının təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi tərəfindən tədbirlər görülüb.



2016-cı ilin ilk 6 ayında Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi üzrə hüquqi və fiziki şəxslərlə aparılan tədbirlər nəticəsində ötən ilin 6 ayı ilə müqayisədə, ümumilikdə, sığorta tədiyələrinin toplanması həcmi 0,4 faiz, həyat sığortası üzrə sığorta tədiyələrinin toplanması həcmi 5,4 faiz artıb. Muxtar respublikada ötən ilin 6 ayı ilə müqayisədə 2016-cı ilin ilk 6 ayında avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə bağlanılmış sığorta müqavilələrinin sayı 1146 ədəd, daşınmaz əmlakın icbari sığortası üzrə bağlanılmış sığorta müqavilələrinin sayı 677 ədəd, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə bağlanılmış sığorta müqavilələrinin sayı 4 ədəd artıb. Hesabat dövründə avtonəqliyyat vasitəsilə xaricə səyahət edən hüquqi və fiziki şəxslərə sığorta təminatı verilməsi məqsədilə 1095 Yaşıl kart sığorta müqaviləsi bağlanılıb.

İqtisadiyyatda kənd təsərrüfatının əhəmiyyətindən bəhs olunaraq bildirilib ki, bu il martın 29-da "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində Naxçıvan Muxtar Respublikasında aqrolizinq sahəsində fəaliyyətin təşkili və yaz-tarla işlərinə hazırlığın vəziyyəti ilə əlaqədar keçirilən səyyari müşavirədə muxtar respublikada əkin sahələrinin, meyvə bağlarının, lizinqə verilən kənd təsərrüfatı texnikalarının sığortalanmasının təmin olunması tapşırığı verilib. Baş direktor bildirib ki, cari ilin ilk yarısında kənd təsərrüfatı bitkilərinin sığortası ilə əlaqədar 627 sığorta müqaviləsi bağlanılıb.

İclasda ötən dövrdə işdə yol verilmiş nöqsanlardan da bəhs olunaraq 2016-cı ilin ilk 6 ayında sığorta tədiyələrinin toplanmasında geri qalan rayon dövlət sığorta agentliklərinə qarşıdakı dövrdə daha səylə çalışmaq tapşırığı verilib.

İclasda rayon dövlət sığorta agentliklərinin direktorları çıxış edərək görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışıblar.

**Xəbərlər şöbəsi**

*Eynəli bəy Sultanov – 150*

# Eynəli bəy Sultanov və *"İşıq yol"* qəzeti

***Ədəbiyyat, mədəniyyət, mətbuat və maarifin inkişafında böyük xidmətləri olan Eynəli bəy Sultanov zəngin və çoxcəhətli yaradıcılıq fəaliyyəti ilə xalqımızın ədəbi-mədəni tərəqqisinə unudulmaz töhfələr vermişdir. "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 15 fevral 2016-cı il tarixli Sərəncamında qeyd olunduğu kimi: "Publisistika sahəsində səmərəli fəaliyyət göstərən Eynəli bəy Sultanov bədii yaradıcılığı da məşğul olmuş, ictimai fikrə və maarifçi mühitə təsir göstərən hekayə və dram əsərləri, şeirlər yazmış, tərcümələr etmişdir".***

Uzun illər Tiflisdə (Tbilisi) yaşayıb işləyən Eynəli bəy həmin şəhərdə Azərbaycan və rus dillərində çıxan müxtəlif mətbuat orqanlarında bədii və publisistik əsərlər dərc etdirmiş, hətta onlardan bəzilərinin rəhbər heyətində təmsil olunmuşdur. Bu baxımdan onun Tiflisdə Azərbaycan dilində çıxan "İşıq yol" qəzetindəki fəaliyyəti diqqəti çəkir. İndiyədək lazımınca araşdırılmadığını nəzərə alıb Eynəli bəyin həmin qəzetdə dərc olunmuş yazılarının müəyyən qisminə diqqət yetirmək istəyirik.

Tanınmış ziyalı Mirzə Davud Rəsulzadənin sədrliyi ilə fəaliyyət göstərən Yeni Türk Əlifbası Tiflis Komitəsinin məsul katibi olan Eynəli bəy Sultanov "İşıq yol"un da fəaliyyətinə rəhbərlik edən əsas simalardan biri idi. "İşıq yol"un ilk buraxılışı 9 mart 1924-cü ilə aiddir. Həmin tarixdə ilk dəfə olaraq "Yeni fikir" qəzetinin bir səhifəsi "İşıq yol"a ayrılmışdı. 18 mart 1924-cü il tarixli ikinci saydan etibarən isə "İşıq yol" ayrıca nəşr olunmuşdur. İlk vaxtlar "Yeni Türk Əlifbası Tiflis Komitəsinin naşiriəfkarı olan hələlik həftəlik vərəqədir" qeydi ilə dərc olunan "İşıq yol" bir müddət sonra "Yeni Türk Əlifbası Tiflis Komitəsinin həftəlik qəzetidir" təqdimatı ilə çıxmışdır. Qəzetin ilk səkkiz sayındakı materiallar paralel olaraq həm ərəb, həm də latın əlifbası ilə verilmişdir. 16 may 1924-cü il tarixli doqquzuncu saydan etibarən isə bütün materiallar ancaq latın əlifbası ilə dərc olunmuşdur.

"İşıq yol"un səhifələrində Mirzə Davud Rəsulzadənin, Eynəli bəy Sultanovun, Əli Nazimin, Əziz Şərifin, Əliyar Qarabağlının, Məmməd Rzazadə Mühəqqərin və başqalarının müxtəlif səpkili yazıları mühüm yer tuturdu. Maraqlıdır ki, o zaman Naxçıvanda yaşayıb fəaliyyət göstərən bəzi ziyalılar və gənclər də "İşıq yol"a yazılar göndərirdilər. Qəzetin müxtəlif saylarında Naxçıvandan göndərilmiş "M.B.Əsgərov", "X" və digər imzalı xəbərlər, Cavad Şərifin şeirləri bu baxımdan maraq doğurur.

Qeyd etdiyimiz kimi, "İşıq yol"un əsas müəlliflərindən biri Eynəli bəy Sultanov idi. O, "İşıq yol" qəzetində "Birisi", "Es", "S" və digər imzalarla müxtəlif səpkili yazılar dərc etdirmişdir.

"İşıq yol"un 28 mart 1924-cü il tarixli üçüncü sayında tanınmış ədibin "Birisi" imzası ilə "Neçün anlamırlar?" adlı məqaləsi var. Həmin məqalədə E.Sultanov ərəb əlifbasından latın əlifbasına keçidin zəruriliyini vurğulamış, bu islahata qarşı çıxanları tənqid etmişdir.

Eynəli bəy Sultanov əlifba islahatını zamanın qarşıya qoyduğu aktual vəzifə, sosial-mədəni tərəqqiyə rəvac verən mühüm faktor kimi qiymətləndirir, onu dağdan axan, qarşısıalınmaz güclü selə bənzədirdi: "Bu işin qabağını siz saxlıya bilmiyəcəksiniz. Əgər dağdan gələn selin qabağını saxlamaq mümkündürsə, bu işin də qabağını saxlamaq olar... Çəkilin yeni əlifbanın yolundan...Yoxsa axırda peşman olarsınız".

"İşıq yol"un 4 aprel 1924-cü il tarixli dördüncü sayında E.Sultanovun "S" imzası ilə verilmiş "İstədiyimiz nədir?" adlı məqaləsi də əlifba məsələlərinə həsr edilmişdir. Məqalədəki maarifçilik ruhu, yeni əlifbaya keçidin böyük əhəmiyyətini izah etmək niyyəti ilk baxışda nəzərə çarpır. Müəllif mükəmməl elmə çatmağın savad vasitəsilə gerçəkləşdiyini, savadsız cəmiyyətdə elmin mümkünsüzlüyünü nəzərə çatdırır, savadın isə ilkin əsasında əlifba təliminin durduğunu vurğulayaraq yazırdı: *"Vətəndaşlar! Gördiyimə və eşitdiyimə görə, biz sizi yeni əlifbanın tərəfinə çağıranda siz bizdən ülkürsiz, bizim sözlərimizi düşünmirsiz. Amma bizdən sizə xeyirdən başqa bir şey dəyməz. Dediyimə yaxşı qulaq asın, məqsədlərimizi bir-bir sizə sayım, ondan sonra görüm, sizin söziniz nədir?*

*Bizim ən ümdə məqsədimiz budur ki, cümlə türk eli elmli olsun. Bu sözə bir irad edən varmı? Yox? Əlbəttə ki, ola bilməz. Elmə nə ilə çatmaq olar? – savadlıq ilə. Savadsız bir tayfanın, bir sinfin, ya bir cəmaətin içində elm yeriməz. Bu mətləb isə o qədər sadədir ki, adam utanır onu təkrar etməyə. Böylə olan surətdə türk xəlqi elmli olmaqdan qabaq gərək savadlı olsun".*

Ərəb əlifbasının çətinliyinin, bütövlükdə, xalqın elmi-mədəni səviyyəsinə mənfi təsir göstərdiyinə diqqət yönəldən E.Sultanov latın əlifbasına keçidin mahiyyət etibarilə ən müxtəlif təbəqələrin maarif yolunu asanlaşdıracağına inamını da ifadə etmişdir: *"Türk xəlqi bu zəmanədək savadı ərəb hürufatının vasitəsilə öyrənirdi. Demirəm ki, ərəb hürufatı ilə elm oxumaq mümkün dəyil, yox. Amma ərəb hürufatı çox çətindir. O səbəbə də türklərin içində bu hürufatda kamil savadlı və elmli olan azdır. Elm və savad neçün gərək azların malı olsun? Bu nemeti bütün xəlqə rəva görmiyənlər, yəqin, xəlqin düşmənidirlər, dostu dəyillər. Dediyimizdən o çıxır ki, biz xəlqimiz üçün elmin yolunu asanlaşdırmaq istiyirik. Bu, gün kimi aşkar bir mətləbdir, amma bununla böylə bu sadəcə sözləri biz o qədər və o vaqtədək təkrar edəcəyik ki, yeni əlifbanın əmələ və kəndli içində bir düşməni qalmasın".*




Qəzetin 4 aprel 1924-cü il tarixli dördüncü sayında E.Sultanovun digər bir yazısı da vardır. "Es" imzası ilə verilmiş "Ədəbi dilimiz barəsində" adlı məqaləsində Eynəli bəy ədəbi dilin inkişafında şair və yazıçıların mühüm rolunu vurğulamış, bununla yanaşı, müxtəlif vaxtlarda dilimizi süni alınmalarla ağırlaşdıran bəzi qələm sahiblərini də pisləmişdi. Məqalədə oxuyuruq: *"Türk tayfasının ədəbiyyat dilinə qüvvət verənlər ancaq ədiblərimiz və şairlərimiz olubdur. Bunlar da qüvvət verdikdə, əlbəttə, dilimizi gözəlləndirmək istiyiblər. Lakin özləri ərəb və fars dillərində təlim tapdıqlarına görə dilimizi də ərəbləşdirməyə və farslaşdırmağa çalışıblar... O səbəbdən zamanəmizdə bir öylə ədəbi türk dili meydana çıxıbdır ki, onu başa düşmək hər adamın işi deyil. Böylə dilin bizə heç bir xeyri yoxdur və ola da bilməz, çünki bu dil bütün millətin dili olmuyub, yalnız bir neçə nəfər ziyalıların dili hesab edilə bilər. Çarəmiz onu asanlaşdırmağa qalıbdır".*

Maraqlıdır ki, Eynəli bəy öz yazılarının da dilində rast gəlinən alınmalara diqqət yönəldir, obyektiv təhlil və dəyərləndirmələr yolu ilə ədəbi dili sadələşdirmək kimi vacib bir vəzifəni bütün aktuallığı ilə önə çəkirdi: *"Baxın, elə mənim bu məqaləmdə, görün, onun içində nə qədər ərəb və fars kəlmələri vardır. Amma bacardıqca gərək öylə yazaq və öz dilimizdə olan sözün əvəzinə heç yad sözü işlətmiyək ki, oxuyanların hamısı yazdığımızı başa düşsün".*

Məqalə müəllifi bu prosesdə xalq içərisində tanınan məşhur ədiblərin, eləcə də nəşriyyatların, mətbuat orqanlarının öhdəsinə də ciddi vəzifələr düşdüyünü nəzərə çatdıraraq yazırdı: "Ədəbi dilimizi birdən-birə asanlaşdırmaq çox çətindir: bunu ancaq çox qüvvəli bir ədib bacara bilər ki, yazdığı kitablar çox olub, xəlqin içində böyük şöhrət qazansın... Tədric ilə də dilimizi asanlaşdırmaq ancaq mətbuatımızın və nəşriyyatımızın vasitəsi ilə mümkündür. Ancaq bu şərt ilə ki, mühərrirlərimiz və qəzetə müdirlərimiz özlərinə söz versinlər ki, nə bir qəliz ibarəli məqalə yazsınlar, nə də böylə məqaləni mətbuata buraxsınlar".

Görkəmli ədibin ibrətli nümunə kimi məşhur rus ədibi Lev Tolstoyun əsərlərinin dili üzərində necə işləməsini, canlı danışıq dilindən lazımınca bəhrələnməsini xatırlatması da maraq doğurur: "Çox yaxşı olardı ki, yazıçılarımız bu barədə rusların və Avropanın ən məşhur ədibi Tolstoydan ibrət alaydılar. Böylə deyirlər ki, Tolstoy hər bir şeyi yazıb qurtaranda kəndçiləri başına yığıb yazdığını onlara oxuyardı və sonra təklif edərdi ki, kəndçilər onun oxuduğunu öz sözləri ilə nağıl etsinlər. Kəndçilərin birbəbir söylədiklərinə diqqət ilə qulaq asıb, Tolstoy qələmi alardı əlinə və yazdığını kəndçilərin təkbirinə münasib düzəldərdi. Odur ki, rus yazıçıların içində bir adam tapılmaz ki, Tolstoy kimi böyük ədibin dilini anlamasın".

"İşıq yol" qəzetinin 23 may 1924-cü il tarixli onuncu sayında Eynəli bəy Sultanovun "Xan, bəy, seyid" adlı maraqlı bir hekayəsi "Birisi" imzası ilə verilmişdir. Həmin hekayə də indiyədək müəllifin kitablarına düşməmişdir. Əsərin adından sonra "həyatdan bir şəkil" qeydi diqqəti çəkir ki, belə təqdimata ədibin bəzi digər əsərlərində də rast gəlirik. Məsələn, yazıçının "Podratçı", "Əmələ ailəsi" hekayələrinin adlarından sonra "həyatdan bir şəkil" qeydi vardır. Əsərdə əsas yeri köhnə cəmiyyətdəki bəzi nöqsanların tənqidi tutur.

Müəllif əsərin əvvəlində qonşu kəndə gedərkən qəbiristanlıqda "Oğul vay! Bala vay!" – deyə ah-nalə çəkib ağlayan bir qadını gördüyünü yazır. Bunun ardınca yazıçı əsas diqqəti ağı deyib ağlayan qadının təsvirinə yönəldir: "Sonra iki əllərini dizlərinə çırpıb, yanğın səs ilə bayatı çəkib oxuyur:

*Sən öldün, anan qaldı, ay oğul!*
*Dərdinə yanan qaldı, ay bala!*
*Nə dünyadan kam aldın,*
*Nə bir nişanan qaldı, ay quzum!"*

Təhkiyənin davamı müəllifin təsvirlərindəki əsas məramı yaxınlaşdırır: "Bir qədər ağlayandan sonra qarı söylədi: – Xan oğlum vay, bəy oğlum vay, seyid oğlum vay! Oğul, ölüm sənin dəyil, gərək mənim olaydı".

Qarı ağlayıb kiriyəndən sonra onun öz övladı haqqında belə ifadələr işlətməsinin səbəbi barədə suala cavab olaraq bildirir ki, oğlum xan, bəy, yaxud seyid deyildi. Amma xan olmasa da, xanlar kimi tənbəl idi, əlini ağdan qaraya vurmazdı. Bəy kimi heç bir işə yaramazdı, həmişə də cibi boş olardı. Bəzi seyidlər kimi boyu uzun, ağlı bir qədər kəm idi. Ona görə də oğlumu xan, bəy, seyid deyə ağlayıram.

Eynəli bəy Sultanovun bir sıra nəsr əsərləri üçün xarakterik olan faciə ilə gülüşün üzvi vəhdəti burada da özünü göstərir.

"İşıq yol"un 30 may 1924-cü il tarixli on birinci sayında E.Sultanovun "Birisi" imzası ilə "Adammı, köpəkmi?" əsəri oxuculara çatdırılmışdır. Lətifə kimi təqdim olunan bu əsərdə müəllif kəndlərin birinə gedərkən adamları dini məkanlara ziyarətə aparmaq üçün haray çəkən çavuş ilə rastlaşmasını və onun çağırışının oyatdığı həyəcanı təsvir edir. Xəbər-ətərsiz kəndə yaxınlaşan çavuşun qəfildən uca səslə hayqırtısı camaatı qorxudur: "Çavuşun səsi çıxan kimi kəndə bir vəlvələ düşdü: itlər səs-səsə verib başladılar ulaşmağa; arvadlar işlərini tulluyub baş-açıq, ayaq-yalın bayıra çıxıb, üz qoydular çölə qaçmağa; balaca uşaqlar analarının dallarınca başladılar ağlaşmağa; kişilər kimisi dəyənək, kimisi xançal götürüb bayıra tulландılar... Xülaseyi-kəlam, bir böyük qiyamət qopdu".

Sakitlik yaranandan sonra kənd qadınlarından birinin qonşusuna dediyi sözlər, əslində, bir qədər üstüörtülü şəkildə olsa da, müəllifin əsas qayəsini aydınlaşdırır: "Dərvanın dönsün, ay urus, dərvanın dönsün!... Bunu da gördük". Yəni burada çavuşun yaratdığı qarışıqlığın təsviri zahiri faktordur. Əslində, yazıçı dövrana, cəmiyyətdə qorxu, xof, təlaş yaradan rus işğalına dolayı yolla olsa da işarə etmişdir.

"İşıq yol"un 1924-cü ildəki 27 iyun və 4 iyul tarixli on beşinci və on altıncı saylarında Eynəli bəy Sultanovun "İnsafsız kimdir?" hekayəsi verilib. Bu əsər də "Birisi" imzası ilə dərc olunmuşdur. Həmin hekayə 2016-cı ildə ədibin tədqiqatçısı Elxan Məmmədov tərəfindən çapa hazırlanmış hekayələr kitabına da daxil edilmişdir.

"İnsafsız kimdir?" əsərində də yumoristik ovqat hakimdir. Köhnə vaxtlarda Hacı Əli adlı bir fanatik dükançı hansısa işinin düzəlməsi üçün nəzir edir ki, məqsədinə çatsa, ən nainsaf adama on manat qızıl pul verəcək. Təsadüfən Hacının işi düz gətirir, amma o ən insafsız şəxsi tapmaqda çətinlik çəkir. Üz tutduğu əzazil qorodovoy Murad daha nainsaf olan pristavı, pristav naçalniki nişan verir. Naçalnik isə qazının lap insafsız olduğunu bildirir. Qazı Hacıdan nəziri qəbul etməsi müqabilində guya ona bir şey satmasının vacibliyini nəzərə çatdırır və həyatındakı qarı Hacıya satır. Bir müddət sonra həmin qarı Hacıya təmizlətdirir. Yayda isə satdığı qarı ondan geri istəyir, bu, baş tutmadıqda əvəzində əlavə olaraq yüz manat da alır.

Seçilmiş yumoristik süjetin imkanları daxilində müəllif çar hökuməti dövründəki müxtəlif təbəqələrin əsl simasını təqdim edə bilmişdir.

*Nəhayət, "İşıq yol" qəzetinin 4 iyul 1924-cü il tarixli sayındakı bir elandan öyrənirik ki, E.Sultanov azərbaycanlılara latın əlifbasını öyrətmək üçün Tiflisdə təşkil olunmuş kurslarda da pedaqoji fəaliyyət göstərmişdir. Bütün bunlar Eynəli bəy Sultanovun çoxcəhətli fəaliyyətinin bəzi səhifələrinə işıq salır.*

**Hüseyn HƏŞİMLİ**
***filologiya üzrə elmlər doktoru,***
***Əməkdar elm xadimi***

***Dünən Heydər Əliyev Muzeyində "Muzeylər tərəfindən təhsil fəaliyyətinin həyata keçirilməsində açıq dərslərin rolu" mövzusunda elmi-nəzari konfrans keçirilib.***

# Elmi-nəzəri konfrans keçirilib



Elmi-nəzəri konfransı Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Həsən Kərimov giriş sözü ilə açaraq bildirib ki, ölkəmizdə muzeyşünaslığın təşəkkül tapması, muzeylər şəbəkəsinin yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Əgər 1969-cu ilə qədər Azərbaycanda cəmi 29 muzey fəaliyyət göstərirdisə, ümummilli liderimizin hakimiyyəti illərində ölkəmizdə 111 müxtəlif profilli muzey yaradılıb.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında da muzeylərin fəaliyyətinin canlandırılması, muzey şəbəkələrinin genişləndirilməsi sahəsində mühüm işlər həyata keçirilir. Əgər 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey fəaliyyət göstərirdisə, hazırda bu qədim diyarda 28 müxtəlif profilli muzey və 1 Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir.

Vurğulanıb ki, muxtar respublikanın təhsil müəssisələrinin muzeylərlə əlaqəli işinə xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Sərəncama uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi və Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən təsdiq edilmiş "Təhsil müəssisələri ilə muzeylər arasında təşkil ediləcək distant dərslərin qrafiki"nə əsasən, 2016-cı ilin birinci yarısında təhsil müəssisələri ilə muzeylər arasında 14 distant dərs keçilib, dərslərə muxtar respublikanın 200-dən çox ümumtəhsil, orta ixtisas və peşə məktəbi qoşulub. Muxtar respublikada məktəb-muzey şəbəkəsi yaradılıb, Azərbaycanın, Naxçıvanın tarix və mədəniyyəti, görkəmli şəxsiyyətlərimiz haqqında distant dərslərin keçirilməsinə başlanılıb.

Sonra Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev "Heydər Əliyev Muzeyində açıq dərslərin keçilməsi təcrübəsindən" mövzusunda çıxış edərək bildirib ki, yarımildə muzeydə 72 açıq dərs və 2 distant dərs keçilib. Bu dərslərdə gənc nəslə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik ideyaları və müstəqillik uğrunda mübarizə tarixindən, xalqımızın tarixi və mədəniyyəti haqqında geniş söhbət açılıb. Milli Qurtuluş Günü münasibətilə muxtar respublikanın təhsil müəssisələri ilə Heydər Əliyev Muzeyi arasında interaktiv əlaqə yaradılıb, "Qurtuluş Günü mənim həyatımda" mövzusunda dərs keçilib. Bu dərsə 200 ümumtəhsil, orta ixtisas və peşə məktəbləri qoşulub.

Xatirə Muzeyinin direktor əvəzi Aynurə Məhərrəmova "Xatirə Muzeyinin ümumi fəaliyyətində açıq dərslərin yeri və rolu" mövzusunda çıxış edərək bildirib ki, bu ilin 6 ayında muzeydə 15 açıq dərs və 3 distant dərs təşkil edilib. 20 Yanvar və Xocalı faciələri, Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı keçilən distant dərslərlə yanaşı, muzeydə keçilən açıq dərslərdə gənc nəslin vətənpərvərlik ruhunun gücləndirilməsi, ata-babalarımızın qəhrəmanlıq nümunələri, milli qəhrəmanlarımız haqqında geniş məlumat verilib, mühazirələr oxunub.

Elmi-nəzəri konfransın sonunda mövzu ilə bağlı fikir mübadiləsi aparılıb, verilən suallar cavablandırılıb və muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

## Əmək yarmarkasına 301 boş iş yeri çıxarılmışdı

*Avqustun 4-də Şərur Şəhər Mədəniyyət Sarayında keçirilmiş növbəti əmək yarmarkasında Şərur Rayon Məşğulluq Mərkəzinin direktoru Məmməd Məmmədov və Şərur Rayon İcra Hakimiyyətinin əməkdaşı Füzuli Hüseynov çıxış ediblər.*

Qeyd olunub ki, əhalinin məşğulluğunun təmin edilməsi, işsizliyin aradan qaldırılması üçün ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi uzunmüddətli strategiya bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir. Regionların sosial-iqtisadi inkişafını əhatə edən dövlət proqramlarının uğurla həyata keçirilməsi kompleks inkişaf templərinin sürətləndirilməsinə şərait yaratmaqla, yeni iş yerlərinin açılmasına, məşğulluğun təmin olunmasına, yoxsulluğun aradan qaldırılmasına geniş imkanlar açıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasının uğurla başa çatdırılması vətəndaşların sosial müdafiəsinin gücləndirilməsində mühüm rol oynayıb. Aparılan səmərəli və məqsədyönlü işin nəticəsidir ki, son illər minlərlə vətəndaşımız yeni iş yerləri ilə təmin olunub, onların maddi rifah halı və sosial vəziyyəti daha da yaxşılaşıb. Bu il yanvar ayının 11-də Ali Məclisin Sədri tərəfindən təsdiq olunmuş növbəti dövlət proqramı isə 2016-2020-ci illəri əhatə edir. Dövlət proqramının məqsədi səmərəli məşğulluğun inkişafına yönəldilən tədbirlərin davamlılığının təmin olunması, işaxtaranlar üçün özünüməşğulluq imkanlarının artırılması, əmək ehtiyatlarının və peşə hazırlığının əmək bazarına uyğun formalaşdırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğunun təmin edilməsidir. Bu sahədə vaxtaşırı həyata keçirilən tədbirlər muxtar respublikamızda insan amilinə verilən yüksək qiymət kimi dəyərləndirilir. Müntəzəm olaraq təşkil olunan əmək yarmarkaları da qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində həyata keçirilən tədbirlərdəndir.

Tədbirdə daha sonra vurğulanıb ki, Şərur rayonunda tikinti-quraşdırma işlərinin gündən-günə genişləndirilməsi, aqrar sahənin inkişafı, yeni sənaye və emal müəssisələrinin işə salınması, xidmət şəbəkələrinin yaradılması nəticəsində ötən il təkcə məşğulluq mərkəzinin xətti ilə 125 vətəndaş müxtəlif işlərlə təmin olunub. Bu ilin altı ayında isə mərkəzdə 273 nəfər işaxtaran qeydiyyata alınıb, onların 251-i müxtəlif sahələrdə daimi, 16 nəfər müvəqqəti iş yeri əldə edib. Bütün bunlar qeyri-məşğul əhalinin məşğulluğunun təmin olunması və sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin bariz nümunəsidir.

İşaxtaranlar məşğulluğun təmin olunmasında əmək yarmarkalarının ən sərfəli metod kimi əhəmiyyətini yüksək qiymətləndirib, yeni iş yerlərinin yaradılması üçün dövlətimiz tərəfindən həyata keçirilən tədbirləri ölkə vətəndaşlarına göstərilən qayğı kimi dəyərləndiriblər.

Yarmarkaya 223 dövlət, 78 qeyri-dövlət təşkilatı tərəfindən, ümumilikdə, 301 boş iş yeri çıxarılmışdı. Yarmarkanın gedişi zamanı 36 nəfərə işə göndəriş verilib.

**Elman MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2016-cı ilin iyul ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 381 | 25,1 | 25,2 | 100,4 |
| 2. | Ordubad rayonu | 1211 | 79,7 | 80,0 | 100,4 |
| 3. | Culfa rayonu | 1201 | 79,0 | 79,2 | 100,3 |
| 4. | Kəngərli rayonu | 682 | 44,9 | 45,0 | 100,2 |
| 5. | Babək rayonu | 2105 | 138,4 | 138,6 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 3623 | 238,4 | 238,5 | 100,0 |
| 7. | Şərur rayonu | 1768 | 116,3 | 116,3 | 100,0 |
| 8. | Sədərək rayonu | 296 | 19,5 | 19,5 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 32069 | 2112,5 | 2101,5 | 99,5 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **43336** | **2853,8** | **2843,8** | **99,6** |

**Qeyd:** İyul ayında texniki itki nəzərə alınmaqla daxil olan 43 milyon 336 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 853 min 800 manat olmuş, cəmi 2 milyon 843 min 800 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,6 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2016-cı ilin iyul ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 460918 | 46092 | 46282 | 100,4 |
| 2. | Sədərək rayonu | 87091 | 8709 | 8739 | 100,3 |
| 3. | Şahbuz rayonu | 212154 | 21215 | 21275 | 100,3 |
| 4. | Babək rayonu | 684962 | 68496 | 68627 | 100,2 |
| 5. | Kəngərli rayonu | 309765 | 30977 | 31024 | 100,2 |
| 6. | Culfa rayonu | 319366 | 31937 | 31969 | 100,1 |
| 7. | Şərur rayonu | 679888 | 67989 | 68051 | 100,1 |
| 8. | Naxçıvan şəhəri | 905611 | 90561 | 90621 | 100,1 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 4445819 | 444530 | 451695 | 101,6 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **8105574** | **810506** | **818283** | **101,0** |

*Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin bir qrup tələbəsinin Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkına səyahəti təşkil edilib. Tələbələr əvvəlcə parkın Culfa rayonunun Boyəhməd kəndi ərazisindəki infrastruktur obyektləri və buradakı muzeylə tanış olublar.*

## Tələbələr Zəngəzur Milli Parkı ilə tanış olublar



Parkla tanışlıqdan əvvəl Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru Mübariz Nuriyev bildirib ki, insan yalnız yaşadığı kəndi, şəhəri deyil, vətəninin hər bir qarışını sevməli, ona diqqət göstərməlidir. Belə parkları, qoruqları gəzmək, diyarımızın zəngin təbiəti ilə tanış olmaq hər bir gəncin vətəndaşlıq borcuna çevrilməlidir.

Sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Şövqi Əliyev tələbələrə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı haqqında geniş məlumat verib. Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 16 iyun tarixli Sərəncamı ilə Ordubad rayonunun inzibati ərazisinin 12131,0 hektar sahəsində Ordubad Milli Parkı yaradılıb. 2009-cu il 25 noyabr tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Ordubad Milli Parkının ərazisi Şahbuz, Culfa, Ordubad rayonlarının torpaqları hesabına genişləndirilərək sahəsi 42 797,4 hektara çatdırılıb. Həmin sərəncamla milli parkın adı dəyişdirilərək Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı adlandırılıb. Milli parkla yanaşı, xüsusi mühafizə olunan təbiət ərazisinin 27870,0 hektarında Ordubad Dövlət Təbiət Yasaqlığı yerləşir. Bu parkın ərazisinin çox hissəsi dağlıqdır. Yayı quraq keçən iqlimi var. Ərazinin torpaq örtüyü müxtəlifdir. Ərazidə, əsasən, boz, çəmən-boz, allüvial-çəmən, dağ-meşə, çimli, dağ-çəmən torpaqlar yayılıb. Bildirilib ki, 90-cı illərdə quru torpaq sahələri olan ərazilər hazırda yaşıllıqlarla əvəz olunub. Bu da muxtar respublikada bütün sahələrlə yanaşı, ekologiyanın da inkişafının göstəricisidir.

Tələbələrə bukletlər paylanıldıqdan sonra onlar ərazi ilə tanış olublar. Qeyd edək ki, Ordubadın zəngin flora və fauna nümunələri, dərman bitkilərindən hazırlanan ekstraktlar, faydalı qazıntılar və o cümlədən nəsli kəsilməkdə olan heyvanların adları "Qırmızı Kitab"da özünə yer alıb.

Parkın elmi işçisi Samir Quliyev tələbələrin suallarını cavablandırıb, bilmədikləri, tanımadıqları bitki və heyvan növləri haqqında onları məlumatlandırıb.

Qeyd edək ki, Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkına gəzinti Naxçıvan Dövlət Universiteti və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilib.

**Fatma BABAYEVA**

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi

### *icra məmuru vəzifələrinə işə qəbulla əlaqədar müsabiqə elan edir*

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq, nazirliyin icra xidmətində icra məmuru vəzifələrinə işə qəbul olunmaq istəyən şəxslər üçün 13 ştat vahidi üzrə müsabiqə elan edir.

İcra məmuru vəzifələrinə işə qəbulla bağlı müsabiqədə iştirak etmək istəyən namizədlər 2 ədəd arxası ağ fonda 3x4 santimetr ölçüdə rəngli fotoşəkil təqdim etməklə müraciət formasını doldurmaq üçün Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə müraciət edə bilərlər.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin icra xidmətində icra məmuru vəzifələrinə işə qəbul olunmaq üçün sənədlərini təqdim etmək istəyən şəxslərin nəzərinə çatdırılır ki, onların ali hüquq təhsili Azərbaycan Respublikası ərazisində müvafiq qaydada tanınan diplomla təsdiq edilməli və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilməlidirlər. İcra məmuru vəzifələrinə 30 yaşınadək olan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum edilmiş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, tibbi rəyə əsasən, fiziki və ya əqli qüsurlarına görə icra məmuru işləməyə qadir olmayan, qanunla müəyyən edilmiş həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar, məhkəmə, prokurorluq, ədliyyə, digər hüquq-mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər icra məmuru vəzifəsinə işə qəbul edilmirlər.

Sənədlər Naxçıvan şəhəri, İslam Səfərli küçəsi 9-da yerləşən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin inzibati binasında 2016-cı il avqust ayının 10-dan 2016-cı il sentyabr ayının 10-dək hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat $10^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin icra xidmətində qulluğa qəbul olunmaq üçün müraciət etmiş və sənədləri qəbul edilmiş namizədlər üçün aşkarlıq şəraitində şəffaflıq təmin edilməklə müsabiqə və söhbət mərhələsi təşkil ediləcək. Müsabiqə imtahanının yekunlarına görə, 55 və daha artıq bal toplamış namizədlər söhbət mərhələsinə buraxılacaqlar. Müsabiqədə bərabər nəticələr əldə etmiş şəxslərdən xarici dilləri mükəmməl bilənlərə üstünlük veriləcəkdir.

İmtahanın vaxtı, yeri, imtahan suallarının hazırlanmasında istifadə edilmiş qanunların siyahısı və digər məlumatlar barədə əlavə məlumat veriləcəkdir.

***Əlavə məlumatlar almaq üçün 545-00-69; 545-22-30 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar.***


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 591